*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 340-345*

https://doi.org/10.62837/2026.1.340

**SAMINA SHAHNIGAROVA SHUKRAN**
**Odlar Yurdu Universiteti**
**Filologiya, Azərbaycan ədəbiyyatı**
**Email-semineshahnigarova@gmail.com**

# MİKAYIL MÜŞFİQİN "QAYA" POEMASINDA BƏDİİ PORTRET VƏ PEYZAJ

**Xülasə**

Məqalədə görkəmli şairimiz Mikayıl Müşfiqin "Qaya" poeması üzərində təhlillər aparılmış, bədii portret və peyzaj aşkarlanaraq üzə çıxarılmışdır. Azərbaycan ədəbiyyatının dahi ədibləri sırasında yer alan Mikayıl Müşfiq yaradıcılığa çox erkən yaşlarında başlamış və tez bir zamanda zəngin bədii irs yaratmışdır. Mikayıl Müşfiq Azərbaycan ədəbiyyatında gözoxşayan və dillər əzbəri olan şeirləri ilə şöhrət qazanmışdır. Onun yaradıcılığında müxtəlif mövzulu şeirlərə, əsərlərə, poemalara rast gəlmək mümkündür.Müxtəlif illərə həsr olunmuş şeirlərinin elə mövzuları da müxtəlifdir ki, bunlar arasında sovet ideologiyasına, vətənə, xalqa, sülhə, müharibəyə, sevgiyə həsr olunanları vardır. Mikayıl Müşfiqin yaradıcılığının çox böyük və mühüm hissəsini lirik şeirlər təşkil edir, görkəmli ədib demək olar ki, həyatını lirikaya həsr etmişdir. Baxmayaraq ki, Mikayıl Müşfiq sovet ideologiyasına qarşı açıq təbliğat apardığı üçün təqiblərə məruz qalmışdır amma o yenədə yolundan dönməmiş və hər şeyi aşkarlığı ilə təbliğ edərək şeirlərinə yansıtmışdır. Mikayıl Müşfiq sənətdən, ədəbiyyatdan zövq almış və bunu öz oxucularına mükəmməl bir şəkildə hiss etdirərək könülləri oxşamış qəlbləri fəth etmişdir. Yazdığı ilk şeirləri 1925-1937-ci illəri əhatə etsə də bu günümüzü də işıqlandıraraq öz aktuallığını qoruyub saxlamışdır. Əsərlərində bədii portret və peyzaja xüsusi yer ayıran Mikayıl Müşfiq lirikasını demək olar ki, bunların üzərində qurmuşdur.

**Açar sözlər** Mikayıl Müşfiq, lirika, bədii irs, bədii portret, peyzaj

## ARTİSTİC PORTRAİT AND LANDSCAPE İN MİKAYİL MUSHFİG'S POEM "QAYA"

**Summary**

The article analyzes the poem "Rock" by our prominent poet Mikayil Mushfig, revealing and revealing his artistic portrait and landscape. Mikayil Mushfig, who is among the great writers of Azerbaijani literature, began his creative work at a very early age and quickly created a rich artistic heritage. Mikayil Mushfig gained fame in Azerbaijani literature with his eye-catching and memorable poems. In his work, it is possible to find poems, works, and poems on various topics. The topics of his poems dedicated to different years are also diverse, among which there are those dedicated to Soviet ideology, homeland, people, peace, war, and love. Lyrical

poems constitute a very large and important part of Mikayil Mushfig's creative work, and the prominent writer almost dedicated his life to lyricism. Although Mikayil Mushfig was persecuted for openly propagating against Soviet ideology, he still did not deviate from his path and openly propagated everything and reflected it in his poems. Mikayil Mushfig enjoyed art and literature and won hearts by making his readers feel this in a perfect way. Although his first poems covered the years 1925-1937, they have maintained their relevance by illuminating the present day. Mikayil Mushfig, who devoted a special place to artistic portraits and landscapes in his works, can be said to have built his lyrics on them.

**Keywords** Mikayil Mushfig, lyrics, artistic heritage, artistic portrait, landscape

## Рэзюме

В статье анализируется стихотворение «Скала» выдающегося поэта Микаила Мушфига, раскрывая и описывая его художественный портрет и пейзаж. Микаил Мушфиг, один из величайших писателей азербайджанской литературы, начал свою творческую деятельность в очень раннем возрасте и быстро создал богатое художественное наследие. Микаил Мушфиг прославился в азербайджанской литературе своими яркими и запоминающимися стихами. В его творчестве можно найти стихи, произведения и поэмы на самые разные темы. Темы его стихов, посвященных разным годам, также разнообразны, среди них есть посвященные советской идеологии, родине, народу, миру, войне и любви. Лирические стихи составляют очень большую и важную часть творчества Микаила Мушфига, и выдающийся писатель почти посвятил свою жизнь лирике. Хотя Микаил Мушфиг подвергался преследованиям за открытую пропаганду против советской идеологии, он все же не свернул со своего пути и открыто пропагандировал все, что хотел, и отражал это в своих стихах. Микаил Мушфиг любил искусство и литературу и покорял сердца читателей, мастерски передавая им эти чувства. Хотя его первые стихи относятся к периоду 1925-1937 годов, они сохранили свою актуальность, освещая современность. Можно сказать, что Микаил Мушфиг, уделявший особое место художественным портретам и пейзажам в своих произведениях, построил на них свою лирику.

**Ключевые слова** Микаил Мушфиг, тексты песен, художественное наследие, художественный портрет, пейзаж

## Giriş

Mikayıl Müşfiqin əsərləri rəngarəngliyi, bədiiliyi və poetik üslubu ilə seçilir. Şairin lirikasında bədii portret və peyzaj mühüm yer tutur və istifadəsi baxımından göz oxşayır. Onun "Qaya" poemasında ifadə olunan fikirlər, sözlər sərrastlığı və axıcılığı ilə seçilmiş və əsərin bədii təsir gücünü artırmışdır. Bədii əsərlərdə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 340-345*

yaradılan bədii portret əsərdə obrazın xarici görkəminin və daxili keyfiyyətlərinin sözlə ifadəsidir. Yazıçı bədii əsərdə portret yaradarkən surətin davranışını, rəftarını təsvir edir amma təbii ki, bədii portret anlayışı bunlarla kifayətlənmir. Bundan əlavə obrazın xarici görkəmi- bədən quruluşu, göz rəngi, boyu, üz cizgiləri haqqında da məlumat verir. Yazıçı tərəfindən yaradılan portret obrazın oxucu tərəfindən yaxşı dərk olunmasında və onun haqqında münasibət bildirməsində mühüm rol oynayır. Əsərdə obrazın bədii portretinin yaradılması oxucunun təxəyyülündə həmin obraza qarşı müsbət və ya mənfi fikirlərin doğmasına gətirib çıxarır. Belə ki, oxucu həmin obrazı daha yaxşı dərk edir öz fikirlərini bildirməkdə çətinlik çəkmir, ən əsası əsəri təhlil edə bilir. Bədii portret fərdiləşdirmə vasitəsi kimi əsaslandırılır. Əsərdə bədii portretin yaradılması insanın görkəminin, xarakterinin hələ tam xırdalıqlarını əks etdirmək baxımından tamlığa zəmanət vermir. Bunun üçün xarakterlə görünüş vəhdətdə verilməlidir. Hər ikisinə toxunulmalıdır. Bədii portret təkcə görünüşlə bağlı olmadığı üçün burada obraz haqqında deyilən fikirlər onun xarakterinə də uyğunlaşdırılmalıdır. Mikayıl Müşfiqin "Qaya" poemasında həm yerli həm də xarici obrazlara rast gəlirik. Qaya poemasında bu obrazlar əvvəllər bir-biri ilə sıx bağlı, eyni məslək sahibləri olan lakin əsərin sonunda bir-birinə tamamilə ziddiyyət təşkil edən obrazlardır. Əsərdə təsvir olunan obrazlar Qaya, Mişka, Polad, Müəllim və Murad. Bu obrazlar haqqında müəyyən fikirlərimiz formalaşır ki, bunu da Mikayıl Müşfiqin bu obrazların bədii portretlərini çox aydın və rahat şəkildə təsvir etməsi ilə bağlıdır. Poemanın əsas, baş qəhrəmanı uşaqlığından yetim böyüyərək hər zülmə qatlaşan və həyatın hər üzünü görən Qaya obrazıdır. Qayanın uşaqlığı kimsəsiz küçələrdə, qaranlıqda əzab-əziyyətlə keçmişdir. Amma bu uşaqda qeyri-adi fitri istedad və oxumaq həvəsi də var ki, bunu da müəllimin dilindən səslənən ifadələrlə, parlaq boyalarla əks etdirilmiş misralarda görürük:

Bilirsən, uzaq ol, axırın heçdir,
Topla iradəni, sanma ki, gecdir
Bax, mən müəlliməm, dinləsən məni
Aparıb qoyaram, məktəbə səni
Bu çirkin işlərə bir son qoyarsan
Orda həm işlərsən, həm oxuyarsan.(1, səh 607)

Poemanın başlanğıc hissəsində Qayanın bədii portretini əks etdirən misralar əksini tapmışdır. Bu misralarda Qayanın görkəmi, səsi haqqında fikirlərə rast gəlirik:

Sabir bağçasında bir neçə öksüz......
Yayılmış aləmə Qayanın səsi
Nə qədər şirindir bu el nəğməsi! (1, səh 602)

Qayanın xarakterini açıq-aydın şəkildə dediyi kəlmələr sayəsində sezə bilirik. Əslində bu uşaq çox yaxşı xarakterə sahibdir, lakin küçələrdə həyat sürməsi tənhalıqla üz-üzə qalması, çətinliklər çəkməsi onu dəyişdirərək pis hallara salıb:

Mənim bu ürəyim daşmı dəmirmi?

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 340-345*

Mən də bir insanam, qəlbim, qanım var.
Vücudumda sel-sel həyəcanım var.(2, səh 310)

Poemanın sonunda Qaya öz məqsədinə çatır oxuyur, təhsil alaraq savadlı şəxsə çevrilir. Yəni özünü həmin bataqlıqdan xilas etməyi bacarır.

Ey keçən dostlarım, yazıq səfillər,
Mən də sizin kimi bir neçə illər
Ümmanlar üstündə başsız, pərişan,
Acı dalğalarla yersiz çarpışan
Bir qərib təknəyə bənzər kimiydim,
Qayəsiz yollarda gəzər kimiydim.
Nə ata çağırışı, nə ana səsi,
Bunların gül kimi lətif bu səsi
Ruhuma ətrini saça bilmədi.
Mənim çocuq dərdim heç əskilmədi.(2, səh 327)

Görkəmli Azərbaycan şairi Mikayıl Müşfiq öz poemalarında bədii portretlə yanaşı peyzajdan da istifadə etmiş və bunu əsərlərində parlaq boyalarla əks etdirməyi bacarmışdır. Onun yaradıcılığında təbiət təsvirləri-peyzaj yalnız estetik funksiyaya malik olmamışdır şair burada romantik duyğularını və mənəvi-estetik baxışlarını da ifadə etmişdir. Xüsusilə Mikayıl Müşfiq poemalarında peyzaj təsvirləri yaradaraq dövrün ictimai quruluşunu özünün keçirdiyi hiss və düşüncələri, el-obanın ab-havasını ön plana çəkmişdir. Mikayıl Müşfiq romantik şair olduğu üçün onun təbiətə baxışı sırf müşahidəyə əsaslanmır belə ki, o təbiəti insanın duyğuları ilə analiz edərək simvolizə etməyi bacarır. Şairin poemaların da, şeirlərində ümumiyyətlə lirikasında təbiət təsvirləri ümidi, gəncliyi, azadlığı, sevgini və həsrəti xarakterizə edən bir mühit kimi təqdim olunur. Mikayıl Müşfiqə görə romantik insanın duyğularla baş-başa qalması üçün onun ruhən yeniləndiyi, saflaşdığı bir aləm olan təbiətə üz tutmalıdır. Şairin təsvirləri olduqca dolğun, ifadəli, rəngarəng, canlı, ritmik və dinamikdir. O, sanki təbiəti səslərin, rənglərin, emosiyaların harmoniyası kimi görür və təsvir edir. Mikayıl Müşfiqin təsvir etdiyi hər bir təbiət obrazı yeni məna alaraq xüsusiləşdirilir və mühüm əhəmiyyət kəsb edir. Demək olar təbiət obrazlarına simvolik məna yüklənir. Çiçəklər gənclik və sevgini, həyat dolu baxışları, günəş işığı, gələcəyi, sönməz arzuları, axar su həyatı, inkişafı simvolizə edir. Mikayıl Müşfiq hislərə, duyğulara çox önəm verir və o düşünür ki, insanın emosial-psixoloji vəziyyəti təbiətdən, ətraf mühitdən asılıdır. Şair poemalarında ən incə və xırda detallara toxunaraq canlılıq yaradır və lirik dinamizmi gücləndirir. Mikayıl Müşfiqin təbiət təsvirləri sanki rəsm əsəri təsiri bağışlayır. Həmçinin əsərlərində rəng duyumunu, koloriti də açıq-aydın şəkildə sezmək mümkündür.

Tufanlı bir gecə, qarlı bir gecə,
Toplanmış bir evə yenə gizlicə (1, səh 610)

Birinci misrada gecənin tufanlı və qarlı olduğu təsvir edilib.

Olduqca nəşəli, olduqca gözəl,
İlıq, oxşayışlı bir bahar günü.(1, səh 614)

Yaz fəslindən bir günü ayıraraq təsvir edən sənətkar burada parlaq və bədii boyalardan istifadə etmişdir.

Gözəl səhər, gözəl hava,
Zalım ovçu çıxdı ova....(1, səh 618)

Səhərin və havanın gözəlliyi vurğulanır. Bu cür hava insanı həvəsə, istəyə gətirir. Yaşamaq həvəsini daha da artır.

O, mavi səma, qızılı günəş, yaşıl çəmən və.s kimi ifadələr işlətməklə əsərin obrazlılığını daha da artırır və onu daha canlı, oxunaqlı edir. Mikayıl Müşfiq təbiət obrazlarını metaforik formada işlədərək lirik mənanı gücləndirir. İstifadə etdiyi metaforalar həm əsərin ideyasını emosial cəhətdən möhkəmləndirir, həm də bədii ifadə tərzini ön plana çəkir. Həmçinin bu metaforalar qəhrəmanın daxili hiss və duyğuları ilə də səciyyələndirilir. Şair çox vaxt musiqinin harmoniyası ilə təbiəti birləşdirərək estetika yaradır. Quşların cəh-cəh vurması, dağlara qar yağması, küləyin vıyıltısı, böcəklərin vızıltısı, dalğaların şırıltısı və. s bu kimi təsvirlər əsərə yeni məna yükləyir.

Mikayıl Müşfiq  Qaya poemasındakı Qaya obrazı dəyişməz, sərt və dik duruşunu özündə ehtiva edir. Bu mənada şair Qayanı insan obrazında verərək ondakı sabitliyi, möhkəmliyi, davamlılığı xarakterizə edir. Şair Qaya obrazı ilə təbiət arasında kontrast yaradır. Belə ki, Qaya yerində möhkəm dayansa da, külək əsir, yağış yağır, buludlar hərəkət edir. Poemada Qaya insan kimi təsvir edilir o, düşünür, danışır, hər şeyi yadında saxlayır. Göründüyü kimi əsərə simvolik məna yüklənir və təbiətlə insan arasında canlı bağ qurulur. Poemada əksini tapmış bir neçə misraya diqqət yetirək.

Axşamkı ayazın canı üzülür,
Olduqca nəşəli bir incə gündüz.(1, səh 602)

Misraya diqqət yetirsək görərik ki, axşamdan qılınc kimi kəsən ayazın artıq səhərə doğru canı üzülür yəni yox olur və yerini nəşəli bir gündüzlə əvəzləyir. Mikayıl Müşfiq burada bədii təzad yaradaraq misranı daha rəngarəng və dolğun edir.

## Nəticə

Apardığımız araşdırmadan gəldiyimiz nəticəyə əsasən qeyd edə bilərik ki, görkəmli sənətkarımız Mikayıl Müşfiq əsərlərində ifadə etdiyi fikirlərin müxtəlifliyi, koloriti, rəngarəngliyi ilə seçilir.  Məqalədə ədibimiz Mikayıl Müşfiqin poema yaradıcılığı araşdırılmış, bədii portret və peyzaj kimi bədii məsələlər aşkarlanaraq üzə çıxarılmışdır. Təhlilimiz şairin “Qaya” poeması üzərində olmuşdur. Xalq ruhuna uyğunlaşdırılmış, sadə və axıcı dili ilə fərqlənən əsərləri Mikayıl Müşfiq yaradıcılığının əsasını və zirvəsini təşkil edir. Buna görə də şairin ədəbi yaradıcılığı, bədii irsi təsvir etdiyi peyzaj və bədii portretlə fərqlilik və xüsusilik qazanmış olur.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 340-345*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 340-345*

## Ədəbiyyat siyahısı

1) Mikayıl Müşfiq. Bütün əsərləri Bakı, "Qanun Nəşriyyatı", 2025, 624 səh
2) Mikayıl Müşfiq. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 352 səh
3) Mikayıl Müşfiq. Seçilmiş əsərləri. Üç cilddə. I cild. Bakı, "Avrasiya press",2008, 244 səh
4) Mikayıl Müşfiq. Seçilmiş əsərləri. Üç cilddə. II cild. Bakı,"Avrasiya press", 2008, 248 səh
5) Mikayıl Müşfiq. Seçilmiş əsərləri. Üç cilddə. III cild. Bakı, "Avrasiya press", 2008, 250 səh

**Rəyçi: Professor Rustam Kamal**